**Azərbaycanın təcrübəsi öyrənilir**

Azərbaycanda nəzarət-kassa aparatlarına (NKA) tətbiq edilən elektron məsafədənötürmə qurğuları (EMQ) ilə bağlı təcrübəni öyrənmək üçün Tacikistanın nümayəndə heyəti Vergilər Nazirliyində olmuşdur. Səfər zamanı qonaqlar həm də «195» Telefon-məlumat xidmətinin fəaliyyəti ilə tanış olmuşlar.

Tacikistanlı qonaqlara bildirilmişdir ki, ölkəmizdə NKA-lara elektron məsafədən EMQ-nin tətbiqinə 2010-cu ildən başlanmışdır. Bu, NKA-nın tərkibinə daxil olan, elektron nəzarət lentindən (ENL) və bu lentdə toplanmış məlumatların ötürücüsündən ibarət elektron qurğudur. Bu intellektual qurğu bir sıra funksiyaları yerinə yetirir. EMQ-lər kassa aparatında hazırlanan bütün ödəniş sənədləri (nağd və ya ödəmə kartı vasitəsilə) və yekun hesabatlar haqqında məlumatları onların hazırlanması ilə vahid tsikldə qeydə alır və bu sənədlər üçün kriptoqrafik nəzarət kodunu (KNK) emal edir. Toplanmış məlumatlar rabitə operatoru vasitəsilə Vergilər Nazirliyinin mərkəzi serverinə ötürülür və nazirliklə əks-əlaqə təmin edilir. Əks-əlaqə vasitəsilə Vergilər Nazirliyi NKA-nın mübadilə reqlamentini və digər parametrləri dəyişə bilir. Vergilər Nazirliyi vergi ödəyicisinin NKA-sına istənilən məlumatı göndərir (məsələn, bildiriş, xəbərdarlıq, məlumatlandırma və s.) və bu məlumatlar NKA-nın ekranında «SMS!» sözü yazılmaqla çekdə çap olunur.

Əvvəllər vergi orqanı tərəfindən vergi ödəyicisinin dövriyyəsinin müəyyən edilməsi üçün müntəzəm vergi yoxlamaları (xronometraj) keçirilirdi. Sahibkarlar hesabat təqdim etmək üçün NKA-dakı məlumatları elektron formata keçirərək vergi orqanına təqdim edirdilər. NKA-ların qeydiyyata alınması və qeydiyyatdan çıxarılması üçün hazırlanmış sənədlər kağız formatda vergi orqanına təqdim olunurdu və vergi orqanında həmin sənədlər elektron formaya keçirilərək AVİS-ə daxil edilirdi. Bu isə xeyli maliyyə və inzibati xərclərin yaranmasına səbəb olurdu. Vergi orqanının yerləşdiyi ərazidən aralı yerləşən NKA-dan istifadə edən ödəyicilərə operativ nəzarət problemi yaranırdı. Fəaliyyətin dayandırılması dövründə vergi ödəyicisinin əməliyyat aparmasına nəzarət səyyar vergi yoxlaması vasitəsilə həyata keçirilirdi. Qeyri-iş günü və qeyri-iş saatlarında obyektlərə nəzarətdə çətinliklər var idi.

Artıq NKA-ların qeydiyyata alınması prosedurları elektronlaşdırıldığından, eləcə də EMQ-nin tətbiqindən sonra qeydiyyat məlumatları avtomatik olaraq AVİS-ə ötürülür. Vergi ödəyicisi tərəfindən aparılan bütün əməliyyatlar EMQ vasitəsilə toplanır və mobil rabitə ilə AVİS-ə ötürülür. Məlumatlar AVİS-də avtomatik emal edilir və riskli vergi ödəyiciləri müəyyən olunur. Uzun müddət NKA-dan məlumat daxil olmayan vergi ödəyicisi risk qrupuna daxil edilərək xüsusi nəzarətə götürülür. Zəruri hallarda Vergilər Nazirliyi mərkəzdən bu və ya digər NKA üçün ötürmə reqlamentini dəyişməklə məlumatların çek vurulan kimi ötürülməsi rejimini verə bilir. Alınan məlumatlar operativ vergi nəzarətini həyata keçirən əməkdaş tərəfindən internet üzərindən onlayn rejimdə müşahidə oluna bilir. Bununla da «elektron xronometraj» aparılması imkanı yaranır. NKA-ya müdaxilə olunduqda qurğu tərəfindən onun işi dayandırılır.

Bununla bərabər, EMQ-lərin tətbiqi ilə vergi ödəyicilərinin NKA üzrə hesabat hazırlaması prosesi asanlaşır. Vergi ödəyiciləri kassa aparatına malların kodlarını, adlarını, həmçinin dəyişən qiymətlərini uzaqdan yükləmək imkanı əldə edir. İnternet Vergi İdarəsi vasitəsilə ödəyici ona məxsus obyektlərdə satışdan daxil olmuş vəsaitlər barədə operativ qaydada məlumatlar ala bilir. Həmçinin ödəyicinin arzusu ilə NKA-nın ekranına mərkəzləşdirilmiş qaydada reklamlar və digər məlumatların göndərilməsi imkanı yaranır.

NKA-lara bu qurğuların tətbiqi ilə vergi xidməti sahəsində elektron xidmətlərin sayı və coğrafiyası genişlənir. Vergi ödəyicisinə məxsus obyektlərdə xronometraj aparılması zərurəti kəskin azalır ki, bu da ödəyicilərin vaxtına qənaət edir, aparılan vergi yoxlamalarının səmərəliliyini yüksəldir. Eyni zamanda, bir vergi əməkdaşı bir neçə obyektdə eyni vaxt ərzində «elektron xronometraj» aparmaq imkanı əldə edir.

NKA-lara elektron məsafədənötürmə qurğaların tətbiqi nəticəsində fəaliyyətini dayandırmış vergi ödəyiciləri tərəfindən nağd hesablaşma əməliyyatlarının aparılmasına nəzarət olunur və vergi orqanı tərəfindən ödəyicinin operativ məlumatlandırılması imkanı yaranır.

Tacikistanın Vergilər Komitəsinin sədrinin birinci müavini Ayub Sloliyev bildirib ki, səfərin məqsədi Azərbaycanda NKA-lara tətbiq edilən elektron məsafədənötürmə qurğularının texniki

imkanlarını, onların tətbiqi zamanı yaranan risklərin, problemlərin aradan qaldırılması ilə bağlı təcrübəni öyrənməkdir: «Bu sahədə Azərbaycanın təcrübəsini öyrəndikdən sonra əldə etdiyimiz nəticələr haqqında Tacikistanın Vergilər Komitəsinin rəhbərliyinə məruzə ediləcək və bundan sonra ölkəmizdə NKA-lara EMQ tətbiq edilməsi haqqında qərar qəbul olunacaq».

A.İBRAHİMOVA